

# XALİDƏ ABDULLAYEVA

***

Sən elə bilirsən mən darıxmıram?
Darıxıram, ay ömrüm,
Həm gündüz, həm gecəni
Mən həsrətəm qoxuna...
Kimsənin nə vecinə -
Salıbdır aralığa bu həsrət körpüsünü,
Alovlanır bu ürək,
Bir gün külə dönəcək;
Deyə bilmir sözünü...
Gecələri bağrıma basıram xəyalını -
O qədər uzaqdasan,
Yanıb kül oluram mən...
Necə soruşum halını?
Sən elə bilirsən mən darıxmıram?
"Bəlkə"lərlə ovunub,
"Kaş ki"lərlə bitirəm -
Aram-aram yox oluram,
Hissə-hissə itirəm...
Yaman çətin olurmuş səndən ayrı yaşamaq,
Sənsiz ayrılığ çağı;
Külə dönsün, İlahi, bu həsrətin ocağı...
Rüzgar yaman bərk əsdi bizim eşqin üstünə,
Alışıb odlanıram oğrun-oğrun tüstünə;
Hərdən də düşünürəm kaş ki olub keçənlər,
Qış yuxusunda yatmış şirin yuxum olaydı -
Ayılardım gözümü ovuda-ovuda mən,
Dillərdə əzbər olan eşqim nağıl qalaydı...

***

Heç nə vermir yerin ötən illərin,
Heç nəyin qalmayıb duzu, məzəsi.
Çoxdandır kəsilib qulağımızdan
Kəndlərdə çalınan zurnanın səsi.

O vaxt qapıları pusardıq bir- bir,
Hələ üzük ilə fal da tutardıq -
Sevdiyimiz kəsin adını çəkib,
Duzlu qoğal yeyib sonra yatardıq.

Heç çıxmır yadımdan həmin zamanlar -
Qonşuya papaq da atıb qaçardıq;
«İl ildən pis gəlir» deyərdi nənəm,
İndi zaman keçdi, biz də qocaldıq.

«O ötən günlərə heç bir gün çatmaz» -
Əzəldən söyləyib belə atalar;
Anladım, ömürdən keçsə də illər,
Keçən gündən şirin xatirə qalar...

***

Axşam üstü fikir, xəyal apardı
Gəzdiyim o cığırlara, bağlara.
Uşaq vaxtı kənddə elə qaçardıq:
Dərələrə, təpələrə, dağlara.

Sübh çağında qoyun-quzu sürüsü
Gedərdi xırmandan üzüaşağı.
Böyüdükcə unutduq kənd-kəsəyi,
İndi yada düşür usaqlıq çağı.

Yenə könlüm o anları istədi,
Fikir, xəyal nənəm, babamgildədir.
O çağlar ən gözəl illərim idi,
Hər yada düşəndə qəlbi titrədir.

Ötən çağlarıma gün çata bilməz,
Köksümdən qəlbimdən silinməz izi.
Heyif, o günlərə bir də dönülməz,
Yaman arzuladım mən kəndimizi.

Hərdən yada düşür o gözəl anlar:
Çörək yapıb, inək sağardı anam.
Həyatın yükünü çəkib üstünə,
Qıymazdı ki, anam tezdən oyanam.

Unutmadım o meyvə bağlarını -
Heç əksik olmadı heyvası, narı.
Bir an da Xalidə heç unutmadı,
Qayıda biləydim o ana barı...